**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№285/6** **31 yanvar 2017-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2016-cı il 07 noyabr tarixli 280/4 nömrəli qərarının icrası vəziyyəti barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2016-cı il 07 noyabr tarixli 280/4 saylı “Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri tərəfindən 2016-cı ilin üzvlük haqqının ödənilməsi vəziyyəti barədə” qərarının icrasına dair Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimovun məruzəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2017-ci il 31 yanvar tarixinədək üzvlük haqqı borclarını tam ödəməyən “Audit Grup” MMC-yə (direktor Məmmədov Natiq), “Az Audit” MMC-yə (direktor İsrəfilov Afiq) və sərbəst auditor Şirxan Gülməmmədova auditor fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş icazənin qüvvəsi 2017-ci il 01 fevral tarixindən üzvlük haqqı borclarını tam ödəyənədək dayandırılsın.
2. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova tapşırılsın ki, bu qərarın 1-ci bəndində adları qeyd edilən auditor təşkilatları və sərbəst auditora auditor fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş icazənin qüvvəsinin dayandırılması barədə məlumatların müvafiq orqanlara təqdim edilməsini təmin etsin.
3. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**